Bülleten No: 25 / yanvar 2015

Elektron Hökumət Portalı

your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

YANVAR 2015

# Elektron Hökumət Bülleteni



## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə




SYSTEM CERTIFICATION ISO 9001 SGS
UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# "Elektron Hökumət": 2014-cü ilin uğurlu yekunları

2014-cü il "Elektron Hökumət" quruculuğu istiqamətində olduqca səmərəli olmuş, il ərzində bu sahənin inkişafı ilə əlaqədar bir sıra işlər görülmüş və əhəmiyyətli layihələr həyata keçirilmişdir. Yeni qurumların, yeni xidmətlərin portala inteqrasiyası, yeni bölmələrin, funksionallıqların yaradılması, qeydiyyatın və istifadənin sadələşdirilməsi, portalın geniş ictimaiyyətə çatdırılması üçün həyata keçirilən tədbirlər və s. istiqamətdə xeyli işlər görülmüş, bununla da portalın dinamik şəkildə inkşafı 2014-cü ildə də davam etdirilmişdir.




2014-cü il ərzində"Elektron hökumət" portalına 114 yeni e-xidmət inteqrasiya edilmişdir. Bununla da portalda olan e-xidmətlərin sayı ümumilikdə 398-ə çatdırılmışdır ki, bu da ötən ilin yekunları ilə müqayisədə 40% çoxdur. Cari ildə portala əlavə olunan yeni elektron xidmətlər Vergilər Nazirliyinə, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə,Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Təhsil Nazirliyinə, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə, Ədliyyə Nazirliyinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya, Əmlak Məsələləri Dövlət Komitəsinə və Dövət Miqrasiya Xidmətinə məxsusdur.

2014-cü il ərzində əhali arasında "E-hökumət" portalına olan maraq xeyli artmışdır. Belə ki, 01.12 2014-cü il tarixə:

– portaldakı e-xidmətlərdən istifadə sayı 6.7 milyonu keçib,

– portalın istifadəçilərinin sayı 1,14 milyonu nəfəri keçib.

Portalın istifadəçilərinin rahatlığının təmin edilməsi, istifadə zamanı meydana çıxan sualların cavablandırılması, e-xidmətlərin göstərilməsində operativliyin və məsuliyyətin artırılması kimi məsələlər diqqət mərkəzində olmuşdur. E-xidmətlər üzrə 100-ə yaxın istifadəçi təlimatı hazırlanmış, bir sıra e-xidmətlərdən istifadə üsullarını əks etdirən video-təlimatlar çəkilmiş, 233 e-xidmət üzrə inzibati reqlamentlər portalda yerləşdirilmişdir.

Portalda "Şəxsi kabinetim" və "Mənim xidmətlərim" adlı bölmələr istifadəyə verilmişdir. "Şəxsi kabinetim" modulu vasitəsi ilə istifadəçi şəxsi məlumatları ilə yanaşı, indiyədək etdiyi müraciətlərin siyahısını da əldə edə bilər. "Mənim xidmətlərim" modulu vasitəsilə istifadəçiyə öz maraq dairəsində olan və daha çox istifadə etdiyi e-xidmətləri ayrı siyahıda tutmaq imkanı yaradılır.

Bununla yanaşı, "Elektron hökumət" portalında "Əks əlaqə" və "Müraciətlər" adlı xüsusi bölmələr hazırlanmışdır. Dövlət qurumları vətəndaşlar tərəfindən e-xidmətlərlə əlaqədar göndərilən müraciətləri operativ şəkildə cavablandıracaq və e-xidmətlərdən istifadə zamanı baş verən problemlərdən vaxtında xəbər tutacaqlar. Vətəndaşlar isə istənilən e-xidmətə dair müraciətləri portal üzərindən xidmət təminatçısına ünvanlaya, verilən cavabları izləyə və qiymətləndirə biləcəklər.

Sosial yönümlü "Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi" e-xidməti yaradılmışdır və hazırda bu xidmətdən kreditlərin rəsmiləşdirilməsi məqsədilə bir sıra Banklar və kredit təşkilatları istifadə edir. Növbəti ildə portal vasitəsilə bir çox arayışların elektron şəkildə vətəndaşlara təqdim edilməsi nəzərdə tutulur və bunun üçün qanunvericilik bazasında müəyyən dəyişikliklərin edilməsinə ehtiyac var.

"Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən vətəndaşlarımızın daha çox və səmərəli şəkildə faydalanmaları məqsədilə MHM tərəfindən Bakı şəhərində və regionlarda mütəmadi olaraq həyata keçirilən maarifləndirmə, motivasiya xarakterli tədbirlər, müsabiqələr və kampaniyalar 2014-cü ildə də davam etdirilmişdir.

Mütəmadi olaraq, Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinə "Elektron hökumət" haqqında nəzəri və praktiki treninqlər keçirilmişdir. Həmçinin, gənclərin maarifləndirilməsi məqsədilə bəzi Universitetlərdə, o cümlədən ADNA-da seminarlar təşkil edilmişdir.

www.e-gov.az

Operatorun təşkil etdiyi "Mənim elektron hökumətim" adlı məqalə və video-material adlı müsabiqəyə 100-dək jurnalist və mütəxəssis qatılmışdı. Bu müsabiqənin qalibləri KİV nümayəndələrinin iştirakı ilə elan edilmişdir.

2-5 dekabr tarixlərində MHM "Elektron hökumət" portalının operatoru olaraq ənənəvi "Bakutel" sərgisində 170 m2 sahəni əhatə edən pavilyonla iştirak edərək, yeni xidmətlərini və imkanlarını əhaliyə nümayiş etdirmiş, sərginin aktiv iştirakçılarına pulsuz e-imza sertifikatlarının hədiyyə edilməsi kimi təbliğatı uğurla həyata keçirmişdir.

Yeni xidmətlərin portala cəlb edilməsi ilə yanaşı, Məlumat Hesablama Mərkəzi tərəfindən qurumlara məlumat bazalarının təkmilləşdirilməsi, məlumatların FİN-ə uyğunlaşdırılması istiqamətində daima onlara dəstək verilir.

Cari ilin oktyabr-noyabr aylarında bütün dövlət qurumlarının İnformasiya ehtiyatları və Sistemlərinə işçi qrup tərəfindən baxış keçirilmiş, məlumat bazaları, onların imkanları öyrənilmişdir. Nəticələr yekunlaşdırılaraq "Elektron hökumət" portalı üçün konkret təkliflər hazırlanacaqdır.

2014-cü il ərzində "Elektron hökumət" portalının operatoru əksər dövlət qurumları ilə birgə məqsədyönlü işlər həyata keçirmişdir və bunun əyani nəticəsi olaraq portalda olan e-xidmətlərin sayı və bu xidmətlərdən istifadə sayı kəskin şəkildə artmışdır.

Hazırda portal üzrə bir sıra yeniliklər üzərində gərgin işlər aparılır və güman edirik ki, görülən işlərin nəticəsi tezliklə öz bəhrəsini verəcək və vətəndaşlarımız "Elektron hökumət" portalında bir sıra önəmli yeniliklərin şahidi olacaqlar. Eyni zamanda növbəti 2015-ci ildə qarşıda duran vəzifələrin və tapşırıqların uğurla icra olunması üçün indidən lazımı tədbirlərin görülməsinə başlanılmışdır.

## Yeni nəsil şəxsiyyət vəsiqələrinin tətbiqi elektron xidmətlərin kütləviləşməsinə təkan verəcək

Hazırda ölkəmizdə istifadə olunan şəxsiyyət vəsiqələri 1994-cü ildə qəbul edilmiş "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Qanuna əsasən tətbiq edilir. Texnologiyanın inkişafı, tanıma cihazlarının, informasiya oxuyan vasitələrin yaradılması, həmçinin cihaz tərəfindən oxuna bilən elektron informasiya çeşidlərinin artması elektronlaşan ictimai vasitələr sırasına şəxsiyyət vəsiqəsinin də əlavə edilməsinə zərurət yaradır.

Prezident İlham Əliyev 8 fevral 2012-ci il tarixində" Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Fərman və bu istiqamətdə görülən tədbirlərin sürətləndirilməsi məqsədilə 28 noyabr 2014-cü il tarixində "Azərbaycan Respublikasında yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalayıb.

Sərəncam Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi sahəsində aparılan işlərin sürətləndirilməsi və ölkədə elektron xidmətlərdən istifadənin daha da genişləndirilməsi məqsədi daşıyır.

Elektron daşıyıcısı (çipi) olan yeni nəsil şəxsiyyət vəsiqələrinin bir özəlliyi də onlara şəxsiyyət vəsiqəsi sahibinin elektron imzası və identifikasiyası ilə bağlı sertifikatların daxil ediləcəyidir. Nəticədə yeni vəsiqələr şəxsiyyəti identifikasiya etməklə yanaşı, həmçinin, elektron sənədlərin imzalanmasında da istifadə ediləcək.

Sərəncama əsasən Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yeni sertifikat xidmətləri mərkəzinin və onun ehtiyat mərkəzinin yaradılmasını və şəxsiyyət vəsiqələrinin fərdiləşdirilməsi zamanı vəsiqələrin elektron daşıyıcısına daxil edilməsi üçün İAMAS vasitəsilə verilən sertifikat sorğuları əsasında vəsiqə sahibinin gücləndirilmiş elektron imzası ilə əlaqədar sertifikatların şəxsiyyət vəsiqələrinin fərdiləşdirilməsi mərkəzlərinə real vaxt rejimində ötürülməsini; şəxsiyyət vəsiqəsi sahibinin gücləndirilmiş elektron imzasından istifadə ilə əlaqədar vətəndaşlardan daxil olan sualların operativ cavablandırılması məqsədi ilə telefon məlumat xidmətinin yaradılmasını və fəaliyyətini təmin edəcək.

Yeni nəsil şəxsiyyət vəsiqələri təhlükəsizlik nöqteyinəzərdən köhnə vəsiqələrdən daha üstün olacaq. Bu vəsiqələrə vətəndaşın yaşayış yeri üzrə qeydiyyatı, ailə vəziyyəti haqqında məlumatlar, habelə şəxsiyyət vəsiqəsi sahibinin biometrik fotosu və digər fərdi göstəriciləri özündə birləşdirən elektron daşıyıcı (çip) yerləşdiriləcəkdir.Bu vəsiqələr digər ölkələrin müvafiq orqanları ilə biometrik informasiya mübadiləsinin tənzimlənməsində müstəsna əhəmiyyət kəsb edəcək.

Sərəncam ilə aidiyyəti dövlət qurumları qarşısında qoyulmuş tapşırıqlar yeni nəsil şəxsiyyət vəsiqələrinin köməyi ilə təkcə portal üzərindən "vahid pəncərə" prinsipinin reallaşdırılmasını deyil, eyni zamanda elektron xidmətlərin keyfiyyətinin yüksəlməsini, xidmətlərə çəkilən dövlət xərclərinin azalmasını, yeni elektron xidmət növlərinin yaranmasını, bürokratik əngəllərin aradan qaldırılmasını, nağdsız hesablaşmaların artmasını, elektron ticarətin inkişafına kömək etməklə yanaşı bütünlükdə ölkəmizdə elektron xidmətlərdən istifadənin daha da genişləndirilməsini təmin edəcəkdir.

Qeyd edək ki, Nazirlər Kabinetinə şəxsiyyət vəsiqələrinin fərdiləşdirilməsi zamanı vəsiqənin elektron daşıyıcısına vəsiqə sahibinin gücləndirilmiş elektron imzası ilə əlaqədar sertifikatların, elektron imza yaratma və elektron imzanı yoxlama məlumatlarının daxil edilməsi ilə bağlı qanunvericilik aktlarında dəyişikliklər edilməsi barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək; bu sərəncamda nəzərdə tutulan işlərin 2015-ci il dekabrın 1-dək başa çatdırılması üçün həmin işlərin aidiyyəti dövlət orqanlarının əsaslandırılmış müraciətləri əsasında maliyyələşdirilməsini təmin etmək və bu sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

# "Elektron Hökumət" quruculuğu istiqamətində gündəmdə olan prioritet məsələlər



*Yeni qurumların portala qoşulması, yeni xidmətlərin elektronlaşdırılaraq portala inteqrasiyası, portalda mövcud xidmətlərin təkmilləşdirilməsi, mövcud qanunvericilik çərçivəsində qurumlar arasında informasiya mübadiləsinin təşkili, istifadəçi yönümlü yeni funksionallıqların yaradılması, istifadəçi ilə portal və qurumlar arasında canlı əlaqələrin yaradılması və sair məsələlər hazırda "Elektron hökumət" portalı üzrə gündəmdə olan prioritet məsələlərdəndir və bu məsələlərin həlli üzrə gərgin iş aparılır.*

www.e-gov.az

Vətəndaşların nəzərinə çatdırmaq istəyirik ki, tezliklə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin bir neçə elektron xidmətlərindən portal vasitəsilə istifadə edə biləcəklər. Yaxın zamanda Maliyyə Nazirliyi tərəfindən

*- Siğorta fəaliyyətinə lisenziya verilməsi ilə bağlı ilkin müraciət*

*- Dövlət büdcəsinin rayonlar (şəhərlər) üzrə aylıq (rüblük) gəlirlərinin icrası haqqında məlumat*

*- Hesabatların qəbulu və s. kimi elektron xidmətlər portala inteqrasiya ediləcək.*

**Bakı Elektrik Şəbəkə" ASC də tezliklə aşağıda qeyd olunan e-xidmətlərlə portal üzərindən vətəndaşlara xidmət göstərəcək:**

- Texniki Şərt üçün elektron müraciət
- Elektron Müraciətlər
- Borcların öyrənilməsi
- Abunəçi kodunun öyrənilməsi
- Elektron ödəniş

Portala yeni qurumların qoşulması ilə yanaşı, mövcud qurumlar üzrə yeni elektron xidmətlərin inteqrasiyası üzərində də işlər aparılır. Tezliklə Dövlət Gömrük Komitəsi portal üzərindən yeni xidmətlərini vətəndaşların istifadəsinə təqdim edəcək.

Hazırda "Elektron Hökumət" portalının təqdim etdiyi "Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi" xidmətindən real rejimdə "Unibank" ASC, "Accessbank", "Bank of Baku", "Bakı Ticarət Bankı", "Muganbank" ASC,"Bank Respublika" ASC faydalanmaqdadır. Yaxın zamanda isə "İnkişaf üçün maliyyə" Qeyri-Bank Kredit Təşkilatı, "Rabitabank" ASC, "Azərbaycan Beynəlxalq Bankı" ASC, "AGBank" ASC və bir sıra digər banklar bu e-xidmət vasitəsilə kredit vermə prosesini sadələşdirəcəklər.

"Elektron hökumət" portalı üzrə daha bir yenilik - Əmlak Məsələləri Dövlət Komitəsinin Ünvan Reyestri İnformasiya Sisteminin portala inteqrasiyası hazırda prioritet məsələdir. Bu proses reallaşdıqdan sonra artıq ünvanla bağlı istənilən e-xidmətdən istifadə zamanı dəqiq ünvan avtomatik olaraq göstəriləcək. Belə e-xidmətlər vasitəsilə yeni ünvanla yanaşı, köhnə ünvan da ekranda əks olunacaq.

Yeni xidmətlərin portala cəlb edilməsi ilə yanaşı, Məlumat Hesablama Mərkəzi tərəfindən qurumlara məlumat bazalarının təkmilləşdirilməsi, məlumatların FİN-ə uyğunlaşdırılması istiqamətində hər cür dəstək göstərilir. Hazırda "AzərEnerji" ASC və "AzərSu" ASC-nin məlumat bazalarında abonent kodlarının FİN-ə uyğunlaşdırılması üzərində iş gedir və bu proses başa çatdıqdan sonra həmin qurumların təqdim etdiyi e-xidmətlər sadələşməklə yanaşı, həm də digər qurumlarla portal üzərindən informasiya mübadiləsi mümkün olacaq. Belə ki, təkcə autentifikasiyadan keçməklə, abonent kodunu daxil etmədən kommunal xidmət haqlarının ödənilməsi və borcun olmaması haqda elektron arayışların portal vasitəsilə verilməsi mümkün olacaq.

**Növbəti ildə portal vasitəsilə aşağıdakı arayışların elektron şəkildə vətəndaşlara təqdim edilməsi nəzərdə tutulur və bunun üçün qanunvericilik bazasında müəyyən dəyişikliklərin edilməsinə ehtiyac var:**

**1.** Yaşayış yeri barədə elektron arayışın verilməsi

**2.** Diplom barədə elektron arayışın verilməsi

**3.** Rabitə xidmət borcları olmaması barədə elektron arayışın verilməsi

**4.** Kommunal xidmət borcları olmaması barədə elektron arayışın verilməsi

**5.** Abituriyentin ali məktəbə daxil olması barədə elektron arayışın verilməsi

**6.** İş yeri və əmək haqqı barədə elektron arayışın verilməsi

**7.** Sağlamlıq barədə tibbi elektron arayışın verilməsi

**8.** Pensiya kapitalı barədə elektron arayışın verilməsi

**9.** Portal vasitəsilə bəzi etibarnamələrin verilməsi

**10.** Şəxsiyyət vəsiqəsinin elektron surəti

**11.** Daşınmaz əmlak barədə Reyestrdən çıxarışın elektron surəti

**12.** Vətəndaşın adına olan avtonəqliyyat vasitəsi barədə elektron arayışın verilməsi

Məlum olduğu kimi, bu xidmətlər müxtəlif qurumlar tərəfindən vətəndaşlardan ən çox tələb olunan arayışlardır və bu arayışların elektron formada təqdim edilməsi vaxta qənaətlə yanaşı rüşvətin və süründürməçiliyin qarşısını almış olacaq.

Ölkə rəhbərliyi tərəfindən qarşıya qoyulan prioritet məsələlərin həlli istiqamətində, vətəndaşlarımızın sosial rifahının yüksəldilməsi məqsədilə hazırda "Elektron hökumət" portalının operatoru əksər dövlət qurumları ilə birgə məqsədyönlü işlər həyata keçirir. Güman edirik ki, görülən işlərin nəticəsi tezliklə öz bəhrəsini verəcək və ölkə əhalisi "Elektron hökumət" portalında bir sıra önəmli yeniliklərin şahidi olacaqlar.

## Bankomatlar, telefon avtomatları, poçt terminalları və digər avtomat qurğularının əlilliyi olan şəxslərə uyğunlaşdırılması planlaşdırılır

Əlillik vəziyyətlərinin müəyyən olunması üçün bütün məlumatların səhiyyə müəssisələrindən Tibbi-Sosial Ekspert Komissiyalarına (TSEK) və sonrakı mərhələdə əlillik müayinəsinin nəticəsi barədə məlumatın aidiyyatı qurumlara ötürülməsi elektron şəkildə həyata keçiriləcək.

Sistem vasitəsilə yaradılmış elektron məlumat bazasına isə əlillik qrupları almaq üçün müraciət edən vətəndaşların xəstəlik vəziyyətləri, müayinələrinin nəticələri, hər bir ilkin və təkrar əlillik təyinatı barədə məlumatlar daxil edilir.

İnformasiya bazası aidiyyatı təşkilatların informasiya ehtiyatlarına inteqrasiya olunub və onlar vətəndaşlara əlilliyə görə pensiya və ya müavinət təyin olunması üçün müvafiq informasiyaları həmin bazadan götürəcəklər. Bu sistem əlillik təyinatları zamanı şəffaflığın təmin olunmasına, neqativ hallara şərait yaradan məmur-vətəndaş münasibətlərinin minimuma endirilməsinə yönəlib.

Tibbi-Sosial Ekspert Komissiyalarının işinin avtomatlaşdırılması Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) "Bərabər imkanlar hamı üçün" prinsipi əsasında hazırladığı "Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Proqramı"nda yer alıb.

Sözügedən sənədə əsasən, Azərbaycanda əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların təhsilində elektron təhsil texnologiyalarının tətbiqi genişləndiriləcək. Həmçinin abilitasiya və reabilitasiya imkanlarını dəstəkləyən köməkçi texnologiyaların və qurğuların istifadəsinin təşviq edilməsi sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Brayl əlifbasını, alternativ şriftləri, surdo tərcüməni bilən peşəkar kadrların hazırlanması və təhsil müəssisələrinə cəlb edilməsi də önə çəkiləcək. Proqram üzrə müəyyənləşdirilən tədbirlər nəticə etibarilə əlilliyi olan şəxslər üçün informasiya mühitinin genişləndirilməsinə də xidmət edəcək.

Bu məqsədlə Milli Fəaliyyət Proqramında "Əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların informasiya və kommunikasiya texnologiyalarından istifadəsi üçün şərait yaradılmasına yönəldilmiş tədbirlər" başlığı altında gələcək üçün nəzərdə tutulan işlər müəyyənləşdirilib. Layihədə tam hərəkətsiz, yaxud hərəkət qabiliyyəti



məhdud əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar üçün səyyar xidmət sektorunun yaradılması (kitabxana, mətbuat, poçt xidmətləri) nəzərdə tutulur. Digər tədbir respublikanın şəhər və rayonlarında informasiya texnologiyaları mərkəzlərinin əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar üçün uyğunlaşdırılmasıdır. Eşitmə, görmə qabiliyyətinin məhdud olması səbəbindən əlilliyi olan şəxslərin informasiya və kommunikasiya texnologiyalarına qoşulmaları üçün texniki dəstəyin verilməsi, mobil operatorlar vasitəsi ilə onlar üçün xüsusi informasiya məlumat növünün yaradılması da planlaşdırılır.

Növbəti tədbir kompüter və mobil informasiya texnologiyaları sahəsində görməyənlərin və zəif görənlərin istifadəsi üçün səsli proqramların alınması və onların tətbiqi üzrə müvafiq tədbirlərin həyata keçirilməsidir. Əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların həyat səviyyəsinin qiymətləndirilməsi məqsədilə sorğular aparılacaq.

Həmçinin istifadədə olan infrastruktur obyektlərinin əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların istifadəsi üçün uyğunlaşdırılması tədbirləri reallaşdırılmalıdır.

Həmçinin bankomatların, telefon avtomatlarının, poçt terminallarının, keçid turniketlərinin, lift, tunel keçidlərinin, eskalator və digər avtomat qurğularının əlilliyi olan şəxslərə uyğunlaşdırılması planlaşdırılır. Həmçinin ictimai binaların qarşısında obyekt və xidmətə dair Brayl qabartma üsulu ilə və ya digər uyğun formatlarda xəritə və məlumatların yerləşdirilməsi nəzərdə tutulur.

# ƏƏSMN "bir pəncərə" prinsipinə uyğun olaraq "Elektron hökumət" portalına avtomatik keçidi təmin edən "Elektron xidmətlər portalı"nı istifadəyə vermişdir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində (ƏƏSMN) sosial xidmətlərin elektronlaşdırılaraq "bir pəncərə" prinsipinə müvafiq vətəndaşlara təqdim edilməsi istiqamətində addım atılmışdır və "Elektron xidmətlər portalı" (www.e-mlspp.gov.az) hazırlanaraq istifadəyə verilmişdir.

"Elektron xidmətlər portalı"nda ƏƏSMN-in "Elektron hökumət" portalı üzərindən göstərilən bütün e-xidmətləri ümumiləşdirilərək "Vətəndaşlar üçün xidmətlər", "İşəgötürənlər üçün xidmətlər" və "Qeydiyyatsız xidmətlər" bölmələri üzrə qruplaşdırılıb. Bu istifadəçilərin öz kateqoriyalarına və müraciətlərinin məzmununa, eləcə də autentifikasiya vasitəsinə malik olub-olmamalarına uyğun olaraq birbaşa hansı bölməyə müraciət etmələri üçün qısa vaxtda seçim etməyə imkan verir.

Mövcud bölmələrdəki e-xidmətlərə daxil olduqda "Elektron hökumət" portalına avtomatik keçid təmin olunur. "Vətəndaşlar üçün xidmətlər" və "İşəgötürənlər üçün xidmətlər" bölmələrində əksini tapan e-xidmətlərdən istifadə üçün müvafiq autentifikasiya vasitələri (elektron imza, asan imza və s.) tələb olunduğu halda, vətəndaşlara "Qeydiyyatsız xidmətlər" bölməsindəki e-xidmətlərdən ("İşsizlik müavinətinin məbləğinin hesablanması kalkulyatoru" və "Sosial müavinətlərin və təqaüdlərin hesablanması üzrə sosial kalkulyator") hər hansı autentifikasiya vasitəsi olmadan birbaşa istifadə etmək imkanları yaradılıb.

Bundan savayı, ictimai əks əlaqənin təmin edilməsi məqsədilə portalda "Fikrinizi bildirin", "Məktub" kimi bölmələr təqdim edilmişdir.

ƏƏSMN sosial xidmətlərin elektronlaşdırılması və vətəndaşlara real elektron xidmət təqdim edilməsinə göstərdiyi xüsusi diqqətin göstəricisi hər ay dərc olunan "Elektron Hökumət Bülleteninin" statistikasında öz əksini tapır. Bu statistikaya əsasən ƏƏSMN bir neçə aydır ki, öz birinciliyini qorumaqdadır.

# Elektron dərslik portalı təhsilalanların dərsliklərdən istifadəsində mobilliyi artıracaq

**2014-cü ildə təhsil müəssisələrinin İKT avadanlıqları ilə təminatı davam etdirilib. Belə ki, təhsil müəssisələrinə 6000 ədəd kompüter; 3000 ədəd notebook; 700 ədəd proyektor; 1377 ədəd elektron lövhə verilib.**



Bundan başqa, 200 təhsil müəssisəsi genişzolaqlı internet xəttinə qoşulub. 900 nəfər təhsil sisteminin inzibati idarəetmə heyəti işçiləri üçün İKT üzrə savadlılığın artırılmasına yönəldilmiş treninqlər keçirilib; 650 nəfər "1 şagird: 1 kompüter" təhsil modelinin ümumi təhsil müəssisələrində reallaşdırılmasına yönəlmiş treninqlərə cəlb olunub.

Təhsil Nazirliyindən qeyd edilib ki, 700 nəfər təhsildə İKT, müasir təlim strategiyaları və layihə metodikasının istifadəsi üzrə treninqlərə cəlb olunub: "450 nəfər müəllim və inzibati idarəetmə heyəti işçiləri İKT-nin tədrisə tətbiqi üzrə mentorluq treninqlərinə cəlb edilib. 1200 nəfər ibtidai siniflərdə dərs deyəcək müəllim tədris prosesində interaktiv texnologiyalardan və elektron məzmundan istifadə üzrə treninqlərə cəlb olunub. 375 nəfər üçün isə Milli Təhsil Məlumat Bazasının istifadəsi üzrə treninqlər keçirilib.

2014-cü ildə elektron dərslik portalı (www.e-derslik.edu.az) istifadəyə verilib. Portal təhsilalanların dərslikləri elektron formatda oxumasına imkan yaradır. Məktəblilər portal vasitəsilə istənilən vaxt və məkanda dərsliklərə müraciət edə biləcəklər. Bu sistem təhsilalanların dərsliklərdən istifadəsində mobilliyi artıracaq, onların öyrənmə prosesinin fərdiləşməsinə şərait yaradacaq".

Təhsil Nazirliyi tərəfindən elektron resursları bir mənbədə cəmləşdirmək üçün "www.e-resurs.edu.az" portalı da yaradılıb. Portal vasitəsilə hər bir istifadəçi elektron dərsliklər, videodərslər, müsabiqələr, elektron tapşırıqlar, müxtəlif oyunlar və digər bu kimi təhsil resurslarına çıxış əldə edə bilər.

# Təhsil Nazirliyi yeni elektron xidmətlərin tətbiqi üzrə işlərə başlayıb

Təhsil Nazirliyi yeni elektron xidmətlərin tətbiqi üzrə işlərə başlayıb. Hazırda təhsil müəssisələrinin akkreditasiyası üçün müraciətin və sənədlərin qəbulu, təhsil müəssisələrinə lisenziyaların verilməsi üçün müraciətin və sənədlərin qəbulu, eləcə də təhsil sənədlərinin həqiqiliyinin onlayn yoxlanılması üzrə elektron xidmətlərin göstərilməsi istiqamətində müvafiq işlər davam etdirilir.

Təhsil Nazirliyi tərəfindən 6 interaktiv və 20-dən artıq informativ elektron xidmət göstərilir. "Elektron hökumət" (www.e-gov.az) portalına nazirliyin iki xidməti inteqrasiya edilib. Vahid portalda yer alan elektron xidmətlərdən biri "2007/2015-ci illərdə Azərbaycan Gənclərinin Xarici Ölkələrdə Təhsili üzrə Dövlət Proqramı üçün elektron ərizə", digəri isə "Diplom haqqında məlumatlar"dır.

www.e-gov.az

# "Mənim Elektron Hökumətim" məqalə və video süjet müsabiqəsinin mükafatlandırma mərasimi keçirildi

**Bakı Mətbuat Mərkəzində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən təşkil edilən "Mənim Elektron Hökumətim" məqalə və video süjet müsabiqəsinin yekun mərasimi keçirildi.**

Nazir müavini Elmir Vəlizadə öz çıxışında Elektron hökumət quruculuğunun dövlətin prioritet siyasəti olduğunu və bu yolda məqsədyönlü ardıcıl addımların atıldığını bildirdi. Nazir müavini "Elektron hökumət" infrastrukturunun ölkədə yoxsulluğun azaldılmasına, korrupsiyanın aradan qaldırılmasına böyük töhvə verdiyini qeyd etdi. Bu sahədə aparılan işlərin müsbət göstəricisi kimi bu il BMT-nin "Elektron hökumət"in inkişaf səviyyəsinə görə reytinqində Azərbaycanın 68-ci yeri tutduğunu tədbir iştirakçılarının diqqətə çatdırdı və gələn ilki reytinqdə bu göstəricinin daha da irəliləyəcəyini hesab etdiyini vurğuladı.

"Elektron Hökumət" portalının operatorunun nümayəndəsi çıxışında "Mənim Elektron Hökumətim" məqalə və video süjet müsabiqəsinin təşkilinin ictimai mahiyyətindən söz açdı. "Elektron hökumət" quruculuğu istiqamətində aparılan işlərin işıqlandırılmasında və cəmiyyətin elektron xidmətlərdən istifadəyə təşviqində KİV-in mühüm rolundan bəhs etdi.

Hər iki nominasiya üzrə mükafatlandırılan iştirakçıların adı açıqlandı. Mərasim müsabiqə iştirakçılarının mükafatlandırılması ilə başa çatdı.



**"Mənim Elektron Hökumətim" məqalə və video süjet müsabiqəsinin qaliblərini nəzərinizə çatdırırıq:**

**Məqalə nominasiyası üzrə**
**1-ci yer** - İlhamə İsabalayeva
**2-ci yer** - Elnarə Kərimova
**3-cü yer** - Ramin İlyasov
**4-cü yer** - İsmayıl İsmayılov
**5-ci yer** - Limunət Əmrahlı

**Video material nominasiyası üzrə**
**1-ci yer** - Səkinə Zeynalova
**2-ci yer** - Nicat Abdullayev
**3-cü yer** - Jalə Quliyeva

# ƏMDK xidmətlərini tam elektronlaşdırmaq niyyətindədir

2015-ci ildə də Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təqdim olunan “e-xidmət”lərin sayının artırılması və komitənin fəaliyyət sahələri üzrə xidmətlərin tam elektronlaşdırılması nəzərdə tutulur.

Bu barədə adı çəkilən komitənin ictimaiyyətlə əlaqələr və informasiya şöbəsinin müdiri Qulu Xəlilov məlumat verib.

O bildirib ki, elektron xidmətlərə icarə haqqı borcları, daşınmaz əmlaka dair xidmət haqqı, mülkiyyətə dair çıxarışın hazır olma tarixi barədə məlumatların SMS vasitəsilə göndərilməsi və digər xidmətlər aid olacaq.

Q. Xəlilovun sözlərinə görə, ötən illər ərzində ƏMDK-da elektron xidmətlərin tətbiqi genişləndirilib.

Ümumilikdə 29 “e-xidmət” vətəndaşların istifadəsinə təqdim edilib. Komitənin göstərdiyi e-xidmətlərin hamısının “Elektron hökumət” portalına inteqrasiya olunduğunu qeyd edən şöbə müdiri vurğulayıb ki, onlardan da bu günə kimi 111 mindən çox fiziki və hüquqi şəxs yararlanıb:

“Yeni istifadəyə verilən elektron xidmət vasitəsilə mülkiyyətçilər daşınmaz əmlak barədə reyestr məlumatlarla tanış ola bilərlər. Artıq reyestr məlumatları onlayn rejimdə verilir. Vətəndaşlar daşınmaz əmlakın yüklü girovda və ya həbsdə olması və digər məlumatları da eyni



qaydada əldə edə bilərlər”.

Digər xidmətlər haqqında danışan Q.Xəlilov bildirib ki, dövlət əmlakının qorunub saxlanması, idarə edilməsi və istifadə vəziyyəti ilə bağlı hesabatlar, dövlət əmlakının icrası üzrə xidmət haqqı, daşınmaz əmlaka dair çıxarışlar, ipoteka, lizinq əməliyyatlarının qeydiyyatı və ləğvi, daşınmaz əmlakın dövlət reyestrindən məlumatların verilməsinə dair interaktiv xidmətlər də təqdim olunur.

2014-cü ildə daşınmaz əmlakla bağlı dövlət qeydiyyatı və onun ləğvi, xidmət haqlarının ödənilməsi, ünvan arayışlarının verilməsi ilə bağlı digər xidmətlər də istifadəyə verilib.

## BMM-də "Elektron xidmətlər: səmərəli idarəçilik və yeni nailiyyətlər" mövzusunda dəyirmi masa keçirilmişdir

17.12.2014-cü il tarixində Beynəlxalq Mətbuat Mərkəzində Vergilər Nazirliyinin orqanı olan "Vergilər" qəzetinin təşkilatçılığı ilə "Elektron xidmətlər: səmərəli idarəçilik və yeni nailiyyətlər" mövzusunda dəyirmi masa keçirilmişdir. Tədbirdə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin, Vergilər Nazirliyinin, İqtisadiyyat və Sənaye Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Sosial Müdafiə Fondunun, ASAN xidmətin, Mərkəzi Bankın, AtaBank ASC-nin, Multimedia Mərkəzinin rəsmiləri və KİV nümayəndələri iştirak ediblər.

Rəsmilərin çıxışlarında "Elektron hökumət" infrastrukturu istiqamətində qurumlar tərəfindən həyata keçirilən işlər yüksək qiymətləndirilmiş, eyni zamanda nöqsanlar və görülməli işlər müzakirə edilmişdir. Müzakirələrin əsas hədəfləri Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş, lakin hələ də elektronlaşmayan xidmətlər, bütün xidmətlərin "bir pəncərə" prinsipi əsasında "Elektron hökumət" portalı üzərindən təqdim edilməməsi, qurumlarının İnformasiya Sistemlərinin portala inteqrasiyası, bir sıra elektron xidmətlərin kütləviləşməməsinin səbəbləri, təbliğat və maarifləndirmə xarakterli tədbirlərin genişləndirilməsi və s. məsələlər idi.

Tədbirdə "Elektron Hökumət" portalının operatorunun nümayəndəsi çıxış edərək, portalın yarandığı gündən bu günə qədər keçdiyi inkişaf yolu, görülən işlər, planlaşdırılan bölmələr və xidmətlər barədə məlumat verdi, statistik göstəriciləri nəzərə çatdırdı. Həmçinin, elektron imza sertifikatlarının əhəmiyyəti qeyd edildi və son zamanlar e-imzaya artan tələbat vurğulandı. Sonra dəyirmi masa iştirakçılarının ölkəmizdə "Elektron hökumət" quruculuğunun yeni mərhələsi "E Gov 3.0" barədə və digər mövzularda sualları cavablandırdı.

## Elektron xidmət vasitəsilə istənilən ünvan avtomatik göstəriləcək




"Elektron hökumət" portalı daha bir prioritet xidməti açıqlayıb. Bu, Əmlak Məsələləri Dövlət Komitəsinin Ünvan Reyestri İnformasiya Sisteminin portala inteqrasiyası prosesidir.

Bu proses reallaşdıqdan sonra artıq ünvanla bağlı istənilən e-xidmətdən istifadə zamanı dəqiq ünvan avtomatik olaraq göstəriləcək. Belə e-xidmətlər vasitəsilə yeni ünvanla yanaşı, köhnə ünvan da ekranda əks olunacaq.

## Azərbaycanda ixtisaslaşdırılmış pul hərracları artıq "Elektron hökumət" portalı üzərindən də keçiriləcək

Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) tərəfindən "İxtisaslaşdırılmış pul hərracı" və "Kiçik dövlət müəssisələrinin (obyektlərinin) əmək kollektivi üzvlərinə güzəştli satışı" xidmətləri portala inteqrasiya olunub.

Bununla da, ƏMDK-nın "Elektron hökumət" portalı vasitəsilə göstərdiyi e-xidmətlərin sayı 31-ə çatıb.

## Dövət Miqrasiya Xidmətinin 9 elektron xidməti "Elektron hökumət" portalına inteqrasiya olundu

Dövət Miqrasiya Xidməti (DMX) ilə Məlumat Hesablama Mərkəzi tərəfindən aparılan birgə işlər sayəsində DMX-nin aşağıdakı 9 elektron xidməti "Elektron hökumət" portalına inteqrasiya olundu və portal üzərindən DMX-nin göstərdiyi elektron xidmətlərin sayı 10-a çatdı:

- Azərbaycan Respublikası vətəndaşlığının əldə edilməsi
- Azərbaycan Respublikasında vətəndaşlığına bərpa edilməsi
- Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması
- Daimi yaşamaq üçün icazə
- Əmək fəaliyyəti müddətinin uzadılması
- Əmək fəaliyyəti üçün icazə
- Miqrasiya orqanlarına qulluğa qəbul
- Müvəqqəti yaşamaq üçün icazə
- Onlayn ödəmə

Beləliklə, Azərbaycan Respublikası Nazırlər Kabinetinin müvafiq qərarı ilə DMX üzrə təsdiq ediıən 11 e-xidmətin 10-u portala inteqrasiya edildi.

İstifadəçilər müraciətlərinin məzmununa uyğun olaraq seçim etməklə bu xidmətlərdən asanlıqla yararlana bilərlər. Bunun üçün portalda autentifikasiyadan keçərək, "Elektron Xidmətlər" bölməsini qeyd edib, DMX-nin müvafiq xidmətini seçmək lazımdır. Açılan səhifədə bu xidmətlər üzrə tələb olunan sənədlərin siyahısı, həmçinin PDF formatında müraciət formaları yerləşdirilmişdir.

Beləliklə, cari ilin son ayı həm dəAzərbaycan vətəndaşları və miqrantlar üçün əhəmiyyətli olan bir çox xidmətlərin elektronlaşdırılaraq "Elektron hökumət" portalında istifadəyə verilməsi ilə əlamətdar oldu.

www.e-gov.az

# "Elektron Hökumət" quruculuğu istiqamətində bir sıra maarifləndirici və sosial layihələrin həyata keçirilməsi planlaşdırılır

*2014-cü il "Elektron Hökumət" quruculuğu üzrə məhsuldar il olmuşdur. Bu il ərzində dövlət qurumlarının həm öz internet səhifələrində, həm də "Elektron Hökumət" portalında təqdim etdikləri elektron xidmətlərin sayı xeyli artmışdır. Bu il elektron sənəd dövriyyəsinin tətbiqi istiqamətində real addımlar atılıb. Görülən tədbirlər nəticəsində e-imzaya da maraq artıb və hazırda e-imza sertifikatlarından faydalananların sayı 27536-dır.*



Məlumat Hesablama Mərkəzi tərəfindən 2014-cü ildə "Elektron Hökumət" quruculuğu üzrə bir sıra təbliğat-təşviqat kompaniyaları həyata keçirilmişdir. İcra hakimiyyəti nümayəndələri üçün "Elektron Hökumət" infrastrukturu istiqamətində seminarlar keçirilmiş, tələbələr ilə görüşlər təşkil olunmuşdur. Dövlət qurumlarının nümayəndələri ilə bir sıra treninqlər keçirlmişdir. Bu tədbirlərin məqsədi "Elektron Hökumət" quruculuğu istiqamətində görülən işləri cəmiyyətə təqdim etmək, elektron xidmətlərin eləcə də, elektron sənəd dövriyyəsinin mahiyyətini geniş ictimaiyyətə çatdırmaqdır. Həmçinin, məqsəd bu il təşkil olunmuş "Mənim Elektron Hökumətim" məqalə və video süjet müsabiqəsi vasitəsilə "Elektron hökumət" quruculuğu üzrə cəmiyyətdə formalaşan fikirlərin, həm də rəy və təkliflərin öyrənilib dəyərləndirilməsidir.

MHM tərəfindən 2015-ci ildə "Elektron Hökumət"quruculuğu istiqamətintə həyata keçiriləcək təbliğat-təşviqat tədbirləri üzrə plan və qrafik artıq hazırlanmışdır. Bu planda İcra Hakimiyyətlərinin nümayəndələri ilə treninqlərin, jurnalistlər ilə görüşlərin, universitet tələbələri üçün maarifləndirici mühazirələrin təşkili, yaşlılar üçün təlimverici seminarların, kitabxanalarda oxucularla görüşlərin, inklüziv təhsil alan uşaqlarla görüşlərin keçirilməsi və s. nəzərdə tutulur. Gələn il üçün "Elektron Hökumət" portalı və e-imzanın populyarlığının artırılması məqsədilə KİV-lərlə sıx əməkdaşlıq edilməsi planlaşdırılır. Həmçinin, "Mənim Elektron Hökumətim" tipli məqalə və video süjet müsabiqələrinin davamlı təşkili də nəzərdə tutulur.

Bununla yanaşı MHM 2015-ci ildə bir sıra sosial xarakterli tədbirlərin də həyata keçirilməsini planlaşdırır.

Bu cür tədbirlər cəmiyyətin elektron vasitələrdən istifadəsini artıraraq rəqəmsallaşma prosesini sürətləndirir. Elektron xidmətlərin, eləcə də elektron sənəd mübadiləsinin mahiyyəti aydınlaşdıqca onlara tələbat da artır. Elektronlaşmaya tələbatın çoxalması "Elektron Hökumət" quruculuğu istiqamətində görülən işlərin keyfiyyətini artırır, onun tətbiq sahəsini genişləndirir.

Hesab edirik ki, 2014-cü ildə həyata keçirilmiş və 2015-ci il üçün nəzərdə tutulan təbliğat-təşviqat kompaniyaları, maarifləndirici və sosialyönümlü tədbirlər "Elektron Hökumət" infrastrukturunun daha da inkişafına və populyarlaşmasına xidmət edəcək.

# Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Elektron Hökumət" üzrə ixtisasartırma kursları təşkil olunub



Portalın əməkdaşları 24-26.12.2014-cü il tarixlərdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında keçirilən "Elektron Hökumət" üzrə ixtisasartırma kurslarında mühazirəçi qismində iştirak ediblər.

RYTN və Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının təşəbbüsü ilə keçirilən kurslarda bir sıra İcra Hakimiyyəti nümayəndələrinə "Elektron Hökumət"in infrastrukturu, onun əsas komponentləri, Dövlət Reyestrləri, elektron xidmətlər və elektron imza barədə əvvəlcədən müəyyənləşdirilmiş proqram və prezentasiyalar əsasında təlimlər keçirilib. İştirakçılara nəzəri biliklər verilməklə yanaşı, həm də ən çox istifadə olunan elektron xidmətlər əyani olaraq nümayiş etdirilib. Kurslar qarşılıqlı müzakirələr və diskussiya şəklində davam etmişdir və iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

Kursların əsas məqsədi regionlar üzrə İcra Hakimiyyəti nümayəndələrinə "Elektron Hökumət", elektron xidmətlər, elektron imza və sair barədə ətraflı informasiya vermək və praktiki biliklərin aşılanmasıdır.

# Rəqəmsal gələcəyin başlanğıcı və əsası - "Elektron hökumət"

**Sosial xidmətlərin elektronlaşdırılması rəqəmsal gələcəyin formalaşdırılması istiqamətində atılan mühüm addımlardandır. Rəqəmsal gələcək - ənənəvi metodlardan qaynaqlanan bürokratik əməliyyatların mövcud olmayacağı, ictimai qərarvermənin ölkə idarəçiliyinə tətbiq ediləcəyi və sosial rifahı sürətləndirəcək innovativ metodların bərqərar olacağı bir cəmiyyətin formalaşdırılması deməkdir. Rəqəmsal gələcək ictimai əhəmiyyətli xidmətlərin elektronlaşdırılaraq keyfiyyət göstəricilərini yüksəltməklə və bütün vətəndaşlar üçün əlçatan edilməklə təşəkkül tapacaqdır.**



"Elektron hökumət" quruculuğu rəqəmsal gələcəyin başlanğıc nöqtəsini və əsasını təşkil edir. Demək olar ki, dünyanın bütün ölkələrində tətbiq edilən bu infrastruktur bəşər cəmiyyətinə yeni idarəetmə üsullarını təqdim edir. İnkişaf etmiş ölkələrdə "Elektron Hökumət", elektronlaşmış xidmətlər, cəmiyyətin qərarvermədə müstəqil iştirakının təmin edilməsi - idarəetmə sistemlərinin prioriteti hesab edilir.

"Elektron hökumət"i ənənəvi hökumətin analoqu və ya əlavəsi kimi dəyərləndirmək heç də düzgün deyil. "Elektron Hökumət" İKT-dən fəal istifadə etməklə bu sferada dövlət xidmətlərinin səmərəliliyinin artırılması məqsədi ilə yaradılan yeni qarşılıqlı münasibətlər sistemidir. Bu sistemin dövlət-vətəndaş, vətəndaş-dövlət münasibətlərinin təkmilləşməsində və demokratik cəmiyyət quruculuğunun formalaşmasında müstəsna əhəmiyyəti var.

Müstəqilliyini yenicə qazanmasına baxmayaraq, ölkəmizdə köhnə idarəçilik sisteminin bürokratik kökləri əsaslı şəkildə aradan qaldırılır, sosial yönümlü idarəetmə sisteminin bərqərar olması istiqamətində uğurlu işlər davam etdirilir. Hazırda Respublikanın bütün idarəetmə orqanlarında bu istiqamətdə ciddi işlər görülür. "Elektron Hökumət" portalı, e-imza, xidmətlərin elektronlaşdırılması, bütün qurumlarda elektron müraciətlərin təşkili bu işlərin bariz nümunəsidir. Kağız üzərində olan sənədlərin elektron sənədlərlə əvəzlənməsi, sosial xidmətlərin keyfiyyət göstəricilərinin artırılması, vətəndaşlara yüksək səviyyəli xidmətlərin təqdim olunması həm də insanlarda idarəçilik sisteminə etibarı təmin edir.

Bu gününə inanan, gələcəyindən arxayın olan cəmiyyət isə bütün demokratik idarəçilik sistemlərinin lokomotivi hesab olunur.

# "157" Zəng Mərkəzinə 19800-dən çox müraciət daxil olub

**Cari ilin sentyabr ayında "157" Zəng Mərkəzi yeni platformaya keçirildikdən sonra mərkəz yeni proqram təminatı ilə təchiz olunmuş, operatorlar arasında yenidən ixtisaslaşma aparılmış və texniki sualların cavablandlırılması üçün müvafiq mütəxəssislər seçilmişdir. Nəzarət məqsədilə operatorların bütün cavabları online qeydiyyata alınır və uzun müddətə arxivləşdirilir.**




Noyabr ayında 157 Zəng Mərkəzinə 5933, yeni platformaya keçirildikdən hazıradək isə 19800-dən çox müraciət daxil olub. Müraciətlər əsasən Elektron Hökümət portalı, Elektron imza sertifikatları, elektron ödənişlər ilə bağlı olub.

Ölkənin istənilən yerindən Zəng Mərkəzinə müraciət etməklə elektron hökumət portalı, elektron xidmətlər, elektron imza ilə əlaqəli müxtəlif suallara bağlı müraciətlərə cavab almaq mümkündür. Zəng Mərkəzi iş günlərində fasiləsiz olaraq saat 9.00-dan 18.00-dək fəaliyyət göstərir.

www.e-gov.az

# "Elektron hökumət" infrastrukturunun və elektron xidmətlərin monitorinqi və qiymətləndirilməsi üzrə Hesabat açıqlandı

**BMM-də "Şəffaflıq Azərbaycan" Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyinin Azərbaycanda elektron xidmətlərin vəziyyəti ilə bağlı 2011-ci il dekabr ayında açıqlanmış ilk monitorinq nəticələrindən sonra, ikinci hesabatı açıqlanmışdır. Tədbiri İctimai Birliyin İcraçı direktoru Rəna Səfərəliyeva açaraq, hesabatın hazırlanması üçün gərgin əmək sərf edildiyini qeyd etdi və hesabatın təqdimatı üçün sözü "Şəffaflıq Azərbaycan" təşkilatının layihə koordinatoru Məhəmməd Muradova verdi.**

Natiq elektron hökumət konsepsiyası və quruluşu çərçivəsində elektron xidmətlərin qiymətləndirilməsini 3 kriteriya: elektron inkişaf, elektron şəffaflıq, elektron iştirakçılıq əsasında aparıldığını bildirdi. Elektron xidmətlərin monitorinqinin təşkilat tərəfindən müəyyən edilən 5 elektronlaşma səviyyəsinə müvafiq dəyərləndirildiyini qeyd etdi. Muradov qiymətləndirmədə əsasən 30 elektron xidmətin prioritet seçildiyini açıqladı. Bəzi elektron xidmətlərin monitorinq nəticələrini tədbir iştirakçıları ilə bölüşən natiq keçən dövr ərzində əldə olunan nailiyyətlərdən danışdı, eyni zamanda irad və tövsiyyələrini tədbir iştirakçılarının nəzərinə çatdırdı.

Sonra, portalın operatorunun nümayəndəsi çıxışında tədbir iştirakçılarına "Elektron Hökumət" portalının keçdiyi inkişaf mərhələlərindən bəhs edərək statistik göstəriciləri müqayisəli şəkildə diqqətə çatdırdı. İ.Abdullayev sosial xidmətlərin tam elektronlaşması və bir sıra elektron xidmətlərin kütləviləşməsi qarşısında dayanan problemləri tədbir iştirakçılarının nəzərinə çatdırdı. Həmçinin, bir sıra qurumların informasiya ehtiyatlarının və sistemlərinin portala inteqrasiya olunmaması, elektronlaşdırılması zəruri olan bir çox xidmətlərin hələ də elektronlaşdırılmaması və hələ də, bir çox dövlət qurumları tərəfindən elektron xidmətlərin "bir pəncərə" prinsipinə uyğun təqdim edilməməsi məsələlərinə öz münasibətini bildirdi. Qeyd olundu ki, elektron xidmətlərin "bir pəncərə" prinsipinə uyğun təqdim edilməməsi səbəbindən e-xidmətlərdən istifadə barədə təqdim olunan statistika bəzən reallığı əks etdirmir. O, "Şəffaflıq Azərbaycan" Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyinin Azərbaycanda elektron xidmətlərin vəziyyəti ilə bağlı keçirdiyi monitorinqləri və hazırlanan hesabatı yüksək qiymətləndirdiyini qeyd etdi, hesabatda göstərilən irad və tövsiyyələrin MHM tərəfindən araşdırılaraq nəzərə alınacağını söylədi.

Tədbirdə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Daxili İşlər Nazirliyi, Satınalmalar üzrə Dövlət Agentliyi, Asan Xidmət və s. qurumların nümayəndələri iştirak edirdilər. Bir çox qurumların nümayəndələri çıxış edərək, hesabatla bağlı öz fikirlərini bildirdilər. Tədbir iştirakçıların qarşılıqlı müzakirələri ilə yekunlaşdı.



## Bank BTB portalın təqdim etdiyi elektron arayış əsasında vətəndaşlara xidmət göstərəcək

**Kreditin rəsmiləşdirilməsi və digər bank prosedurlarının daha operativ təşkili üçün artıq Bank BTB-dədə elektron arayışdan istifadəyə başlanılması üçün zəruri texniki-texnoloji işlər başa çatmışdır. Bu işlərin təşkili "Elektron Hökumət" portalının Operatoru - Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi və Bank BTB arasında imzalanmış müqavilə əsasında baş tutmuşdur.**

Elektron hökumət portalında qeydiyyatdan keçmiş və ya portalda avtorizasiya üçün digər vasitələrə malik olan vətəndaşlar bu gündən etibarən onlayn rejimdə internet olan istənilən məkandan kredit sifarişi üçün banka müraciət edə bilərlər. Qeyd edək ki, kreditin rəsmiləşdirilməsi üçün iş yerindən arayışı bankın filiallarından da əldə etmək mümkündür. İlkin mərhələdə bu xidmətdən bankın 5 filialında yararlanmaq mümkün olacaq. Bunun üçün vətəndaş yalnız şəxsiyyət vəsiqəsi ilə bankın müvafiq filialına yaxınlaşmalıdır. Qısa zamanda bankın bütün xidmət şəbəkəsinin bu xidmətə qoşulması planlaşdırılır.

Elektron arayış vətəndaş tərəfindən "Elektron hökumət" portalı vasitəsilə formalaşdırılan elektron sənəddir. Elektron arayış aşağıdakı üstünlüklərə malikdir:




- **İş vaxtına bağlılığın olmaması.** Elektron arayışı sutkanın istənilən vaxtı əldə etmək mümükündür;
- **Vaxta qənaət.** Operativlik. Arayışı əldə etmək üçün bir neçə təşkilata baş vurmağa ehtiyac qalmır. Arayış Portal vasitəsilə asanlıqla formalaşdırılır və lazımi ünvana elektron şəkildə göndərilir;
- **Şəffaflıq.** Vətəndaş məmur münasibətlərinin minimuma endirilməsi;
- **Məlumatların dəqiqliyi.** Arayış dövlət informasiya ehtiyatlarının məlumatları əsasında formalaşır.

## Azərbaycanda elektron turist vizasının tətbiqi gəlmə turizmin inkişafına səbəb olub

**Ölkəmizdə elektron turist vizasının tətbiqi Mədəniyyət və Turizm Nazirliyindən turizm fəaliyyətinə lisenziya almış turizm şirkətlərinin gəlmə turizm növünə marağını artırıb.**

Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumata görə, hazırda elektron turist vizasının verilməsi ilə bağlı nazirlik tərəfindən 55 turizm şirkəti akkreditasiyadan keçib.

2013-cü il ərzində turizm şirkətləri tərəfindən elektron turist vizası vasitəsilə ölkəmizə gələn xarici turistlərin sayı 6.147 nəfər təşkil edib. 2014-cü ilin I yarımillik məlumatlarına əsasən bu rəqəm 11.933 nəfər olub.







www.e-gov.az

## 01.12.2014 – 31.12.2014-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 153958 |
| 2 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 86372 |
| 3 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 68528 |
| 4 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 51658 |
| 5 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 36076 |
| 6 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 22991 |
| 7 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 22363 |
| 8 | Portal üzərindən istifadəçi qeydiyyatı | Elektron Hökumət Portalı | 19849 |
| 9 | İş yerinə dair arayış | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 18710 |
| 10 | Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi | Elektron Hökumət Portalı | 14677 |
| 11 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 14502 |
| 12 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 10178 |
| 13 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 5494 |
| 14 | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 4923 |
| 15 | Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 4421 |
| 16 | Portal üzərindən verilmiş arayışların yoxlanılması | Elektron Hökumət Portalı | 4155 |
| 17 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 4066 |
| 18 | Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3638 |
| 19 | AzDataCom internet xidmətinə qoşulma üçün sifariş | RYTN | 3565 |
| 20 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3177 |

## 01.01.2015-ci il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 78 | 153 | 231 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 31.12.2014 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 17113 | 4838 | 6628 | 28579 |

## 2014-cü ilin dekabr ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 8 | 245259 |
| 2 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 41 | 208403 |
| 3 | Dövlət Sosial Müdafiə Fondu | 13 | 78326 |
| 4 | Elektron Hökumət Portalı | 10 | 38969 |
| 5 | Daxili İşlər Nazirliyi | 2 | 3561 |
| 6 | Əmlak Məsələləri Dövlət Komitəsi | 38 | 3030 |
| 7 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 14 | 2872 |
| 8 | Təhsil Nazirliyi | 1 | 2389 |
| 9 | Mərkəzi Seçki Komissiyası | 7 | 2092 |
| 10 | "AzərEnerji" ASC | 2 | 1627 |
| 11 | "Azərsu" ASC | 2 | 1119 |
| 12 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 917 |
| 13 | Səhiyyə Nazirliyi | 18 | 854 |
| 14 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 13 | 681 |
| 15 | Dövlət Gömrük Komitəsi | 5 | 648 |
| 16 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 629 |
| 17 | Milli Arxiv İdarəsi | 2 | 540 |
| 18 | Ədliyyə Nazirliyi | 10 | 492 |
| 19 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 451 |
| 20 | Satınalmalar üzrə Dövlət Agentliyi | 8 | 416 |
| 21 | Dövlət Statistika Komitəsi | 5 | 392 |
| 22 | Fövqəladə Hallar Nazirliyi | 4 | 183 |
| 23 | Nəqliyyat Nazirliyi | 4 | 175 |
| 24 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 171 |
| 25 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 154 |
| 26 | Vergilər Nazirliyi | 6 | 146 |
| 27 | Dövlət Sərhəd Xidməti | 2 | 130 |
| 28 | Dövlət Miqrasiya Xidməti | 2 | 120 |
| 29 | Xarici İşlər Nazirliyi | 1 | 98 |
| 30 | Energetika Nazirliyi | 6 | 92 |
| 31 | Kənd Təsərrüfatı Nazirliyi | 19 | 81 |
| 32 | Baş Prokurorluq | 1 | 77 |
| 33 | Dövlət Dəniz Administrasiyası | 18 | 74 |
| 34 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 12 | 72 |
| 35 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 71 |
| 36 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 11 | 50 |
| 37 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 49 |
| 38 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 48 |
| 39 | Gənclər və İdman Nazirliyi | 4 | 46 |
| 40 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 37 |
| 41 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 28 |
| 42 | Müəllif Hüquqları Agentliyi | 5 | 19 |
| 43 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 8 |
| | **CƏMİ** | **336** | **595596** |

www.e-gov.az

## "E-hökumət" portalında olan e-xidmətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş siyahı ilə

# MÜQAYİSƏLİ TƏHLİLİ

*01.01.2015*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 26 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 18 | 12 | 18 | 15 | 14 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 3 |
| 6 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 7 | 7 | 11 | 5 |
| 7 | Vergilər Nazirliyi | 60 | 51 | 52 | 58 | 58 |
| 8 | Energetika Nazirliyi | 8 | 6 | 6 | 5 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 15 | 10 | 12 | 15 | 14 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 15 | 13 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 18 | 18 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 5 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 2 | 2 | 12 | 5 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 29 | 31 | 31 | 31 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 15 | 34 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 27 | 26 | 31 | 31 | 24 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 11 | 12 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 6 | 6 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 14 | 14 | 14 | 14 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 11 | 10 | 10 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 4 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 4 | 4 | 5 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 38 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 1 | 8 | 2 | 2 |
| 39 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 40 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 41 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 42 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **452** | **322** | **383** | **463** | **399** |

| | DÖVLƏT QURUMUNUN ADI | | | |
|---|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | 2 | 2 | |
| 2 | "Azərsu" ASC" | 2 | 3 | |
| 3 | Azərenerji" ASC | 2 | 3 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | 6 | 9 | |
| 5 | Baş Prokurorluq | 1 | 1 | |
| 6 | "Elektron hökumət" portalı | 2 | | |
| | **CƏMİ:** | **15** | **18** | |

| **YEKUN** | **452** | **322** | **398** | **481** | **399** |
|---|---|---|---|---|---|

# "Elektron hökumət" portalına daxil olanların sayı 1 137 975 nəfərə çatdı




Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2014-cü ilin dekabr ayının 31-ə qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 3,614,775 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 1,137,975 nəfər olub. Belə ki, 1,137,975 nəfər ümumən 3,614,775 dəfə portala baxıb və 6,711,902 dəfə elektron xidmətlərə müraciət ediblər. Həmin şəxslər 14,557,151 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 6 dəqiqə 35 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 31.5%-ni yeni istifadəçilər, 68.5%-ni isə təkrar müraciət edənlər təşkil edib.

2014-cü ilin yanvar ayının 1-dən dekabr ayının 31-ə dək olan zaman kəsiyində isə portala daxil olmaların sayı 3,158,063 olub. Bu dövr ərzində ümumən 890,804 nəfər portala müraciət edib. Onlar 12,965,606 dəfə müxtəlif səhifələrə keçid ediblər, 5,962,572 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 6 dəqiqə 50 saniyə olub.

Dekabr ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 359,320 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 103,739 nəfər olub. Həmin şəxslər 1,466,197 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 595,596 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 6 dəqiqə 19 saniyə təşkil edib. Dekabr ayı ərzində portala müraciət edənlərin 19.7%-ni yeni istifadəçilər, 80.3%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 161,239-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 398 olub.




© 2015 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az